# RZAYEV CANPOLAD YAQUB OĞLU



26 fevral 1968-ci ildə Ağdam rayonunun Çuxurməhlə kəndində dünyaya gəlmişdir. Əhmədavar kənd orta məktəbinin səkkizinci sinfini bitirmiş və bir müddət kolxozda işləmişdir. 1988-ci ildə ordu sıralarına çağırılmış, hərbi xidmətini raket qoşunları hissəsində keçmişdir. Xidmətini başa vurduqdan sonra hərbi hissədə qalıb təhsilini davam etdirmişdir və leytenant rütbəsi almışdı. Qarabağ müharibəsi başlayanda o, könüllü olaraq Vətənə döndü.. O, Xramort, Xanabad, Əsgəran, Qarakənd, Gülablı kəndləri uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşub. 1992-ci il fevralın 26-da Xocalı faciəsi zamanı əhalinin qaçıb xilas olmasında fədakarlıq göstərmişdir. Canbulaq tankına oturaraq Qaraqaya kəndinə üz tutdu. Burada xeyli erməni quldurunu sərrast atəşlərlə məhv edən cəsur döyüşçü yüzlərlə dinc sakinin mühasirədən çıxmasına şərait yaratdı. Hər tərəfdən atəşə məruz qalan Canbulaq döyüş meydanında qəhrəmancasına həlak oldu. Ailəli idi. İki oğlu yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Rzayev Canpolad Yaqub oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.